# "Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik"

***Bütün uğurlarımız ancaq müstəqillik dövründə mümkün olmuşdur. Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir.***

***Azərbaycan Prezidenti İlham Əliyevin 18 aprel 2018-ci il tarixli andiçmə mərasimindəki çıxışından***



***Dövlətimizə sarsılmaz qüdrət, xalqımıza əbədi başucalığı, dünya azərbaycanlılarına tarix boyu unudulmayacaq qələbə sevincləri, ölkə əhalisinə firavan həyat, ordumuza beynəlxalq aləmdə heç vaxt şahidi olmadığımız reytinq qazandırmış Prezident İlham Əliyevin dövlət başçısı kimi dördüncü dəfə and içməsindən dörd il keçir. Dövlət başçımız andiçmə mərasimlərinin hamısında bir arqumenti təkrar etmişdir: son illərdə Azərbaycanda hərtərəfli inkişafı təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.***

2018-ci ildəki andiçmə mərasimində də cənab Prezident xatırlatdı ki, biz Heydər Əliyev yolu ilə gedərək, böyük uğurlara imza atmışıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Bu illər ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş qarşıdurmaları, dövlət çevrilişləri. Yəni, təhlükəsizlik baxımından son illər çox gərgin keçmişdir. Dövlət başçımızın dediyi kimi, Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır. Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq... Bu da inkişafımız üçün əsas şərtdir.

İlham Əliyevin dördüncü dəfə Prezident seçilməsindən sonra ölkəmizdə və bölgədə heç zaman görünməmiş dəyişikliklər baş verdi. Heydər Əliyev siyasətinin davam etdirilməsi regionda və dünyada yeni reallıqlar yaratdı, Azərbaycan öz ərazi bütövlüyünün bərpasına nail oldu, BMT Təhlükəsizlik Şurasının on illər boyu kağız kimi bir tərəfə atılmış qətnamələri icra edildi, dünyadakı erməni mifləri darmadağın oldu, ikili standart müəllifləri ağır zərbə aldılar və sair.

Dövlət başçımız aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki nitqində son illərdəki uğurlarımızı daha böyük qürur və iftixarla yada saldı. Qeyd etdi ki, müharibədən dərhal sonra apardığımız siyasət, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ikitərəfli formatda böyük dövlətlərlə əlaqələrimiz, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda baş verən inkişaf və hadisələr regionda reallıqlara gətirib çıxarıb: "Biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var, biz bilirik nə istəyirik və öz məqsədlərimizə bundan sonra da çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik".

Ötən il ölkəmizdə reallaşdırılan layihələri və həyata keçirilən tədbirləri postmüharibə dövrü ilə bağlı əsas məsələlər adlandıran Prezident əlavə etdi ki, bu işlərin davamı gündəlik həyatda öz əksini taparsa, bölgədə, eləcə də, Cənubi Qafqazda sülh olacaq, əmin-amanlıq olacaq, müharibə riskləri böyük dərəcədə azalacaq və beləliklə, biz rahat yaşaya bilərik. Azərbaycan xalqına xas olan yüksək xüsusiyyətləri nəzərə alaraq qurub yarada bilərik. Bunu edirik və bu haqda da bu gün danışacağıq.

**(ardı 2-ci səhifədə)**

# "Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik"

*(əvvəli 1-ci səhifədə)*

Prezident həm andiçmələrində, həm xarici ölkə rəhbərləri ilə görüşlərində, həm də bütün müraciət, müsahibə və nitqlərində dönə-dönə vurğulayır ki, biz humanist xalq və sülhsevər dövlət kimi hamı ilə bərabərhüquqlu əməkdaşlıq qurmaqda, mehriban qonşuluq münasibətlərini qoruyub saxlamaqda maraqlıyıq və bu məramımız heç zaman dəyişməyəcək: "Eyni zamanda, əlbəttə, biz heç vaxt bu işğalı unutmamalıyıq, erməni vəhşiliyini unutmamalıyıq. Eyni zamanda, onu da unutmamalıyıq ki, bu gün Azərbaycan güclüdür, Ermənistan zəifdir. Ermənistan tərəfinin davranışı da məhz bu amillərə söykənir. Biz real həyatda yaşayırıq və 1990-cı illərin əvvəlində Ermənistan tərəfindən bizə qarşı aparılmış etnik təmizləmə siyasətini, Xocalı soyqırımını, işğalı heç vaxt unutmamalıyıq, azərbaycanlılar kimi həmişə bizim yaddaşımızda olmalıdır. Məsuliyyətli insanlar kimi həmişə biz hər şeyə hazır olmalıyıq".

Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsas istiqamətləri barədə qələmə aldığımız əvvəlki yazılardan birində qeyd etmişdik ki, o, Azərbaycan parlamentinin AŞPA-dakı daimi nümayəndə heyətinin rəhbəri olduğu zaman həmin beynəlxalq təşkilatdakı Azərbaycan və Türkiyə parlamentarilərinin birgə fəaliyyəti təşəbbüsü ilə çıxış etmiş və bu istəyinə nail olmuşdu. Onun ölkəmizdə dövlət başçısı seçiləndən sonrakı addımları isə bizim qələbəyə gedən yolumuzda mühüm əhəmiyyət kəsb etmişdir.

Fikrimizi iki məqamla davam etdirək. Dövlət başçımız ötən il oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə mətbuata bəyanatla çıxış edərkən demişdi: "Bu gün regional işlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Türkiyə Əziz qardaşımın liderliyi ilə artıq dünya çapında böyük gücə çevrilib və heç kim Türkiyəyə öz iradəsini diktə edə bilməz. Bu yaxınlarda Əziz qardaşım Türkiyənin daxili məsələlərinə müdaxilə etmək istəyənlərə elə cavab vermişdi ki, hesab edirəm bu, bütün siyasətçilər üçün örnəkdir. Öz milli ləyaqətini qoruyan, öz xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən lider bu gün buradadır, Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Biz bunu qiymətləndirməliyik. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan amili ən önəmli amillərdən biridir".

İndi isə daha yeni olan bir nitqdəki bu məzmunlu qətiyyətə diqqət yetirək. Dövlət başçımız aprelin 12-də keçirilən müşavirədəki nitqində Azərbaycan – Türkiyə münasibətlərini daha geniş şəkildə xarakterizə edir: "Gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək... Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər... Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək. İnkişaf üçün də, bir daha demək istəyirəm ki, ilk növbədə, Azərbaycan və Türkiyə ilə əlaqələr beynəlxalq hüquq norma və prinsiplər əsasında normallaşmalıdır".

Bəli, müstəqillik və qələbələr yolu ilə gedən Azərbaycanın ən böyük uğurları hələ qabaqdadır. Çünki bizim hədəflərimiz təkcə ölkəmizin BMT-yə daxil olarkən tanınan ərazilərinin bərpasına nail olmaqdan ibarət deyil. Biz həm də Türk dünyasının iqtisadi birliyinə zəmin yaradacaq nəqliyyat-kommunikasiya vasitələrinin günün reallığına çevrilməsini hədəfləyirik ki, bu da Prezident İlham Əliyevin hələ yeni əsrin ilk illərindəki məqsədlərindən biridir.

Günün reallıqları ondan ibarətdir ki, İlham Əliyev seçicilərinə verdiyi bütün vədlərin reallığa çevrilməsini artıqlaması ilə təmin edir. Bunun təməlində isə həm dövlət başçımızın şəxsi keyfiyyətləri, həm də xalqın ona olan sarsılmaz inam və etimadı dayanır. Təsadüfi deyil ki, Azərbaycan indi xalq-iqtidar birliyinin də ən mükəmməl nümunəsini formalaşdırmışdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***